* * *

Həqdi, gözəl çoxdu cahan içində,
Gözəldə bir neçə nişanə gərək.
Əvvəl aşiqinə mehriban ola,
Ondan qeyrilərə biganə gərək.

Gözəlin billur tək gərək bədəni,
Eyləyə özünə heyran göreni,
Yarlı-yaraşıqlı boyu, gərdəni,
Nə uzun, nə gödək, miyanə gərək.

Ənbər xəcil ola zülfü buyundən,
Qəmər-rüxsarından, şəms-ruyundən;
Canlar təzələnə göftü kuyundən,
Sözünün hər biri dürdanə gərək.

Mərifətdə kamil, sinndə uşaq,
Qədir bilən, özü doğru, sözü sar.
Quzu quyruğu tək nazikü yumşaq,
Lərzə verə cismi hər yanə gərək.

Zakir nə yamandır halı dünyanın,
Əksik olmaz qalmaqalı dünyanın,
Dərdü sərdi mülkü malı dünyanın,
Can üçün bir belə cananə gərək.

* * *

Həqdi, gözəl çoxdu cahan içində,
Ola bilməz sənə nisbət hər gözəl.
Zərrəcə eybin yox başdan ayğa,
Ola bilməz sən tək sərasər gözəl.

Müdrik ola, aqil ola əhli-hal,
Bilməyə ki, nədir hərgiz məkrü al,
Dişi gövhər, ağzı şəkər, dili bal,
Dodaqları qəndi-mükərrər gözəl.

Gözəlin bəzisi bədniyyət olur,
Qədrbilməz olur, bihörmət olur,
O ki, bir parası kəmcürət olur,
Çətin ələ düşər dilavər gözəl.

Gözəl olan gərək bizar olmasın,
Təmiz-tariq olsun, yassar olmasın,
Heç kafər bəndəyə düçar olmasın
Ev-eşiyi murdar, bihünər gözəl.

Şikəstə Zakirin varı var idi,
Öz boynuna şüğlü karı var idi,
Xəlq içində etibarı var idi,
Əbəs-əbəs saldı dərbədər gözəl.

Təcnislər

Qalmadı bir ovuc qəllə, biz acıq[1]
Qurtulubdi bu afətdən o Dızaq[2]
Quru yerə zor eyləmiş bir acıq[3],
Qəlbimizdən gedən deyil o dızaq[4].

Qalırmola yarəb bizə bu damaq[5],
Qılınc alıb səg rəqibi bu damaq[6],
Qaragözlüm geyinibdir bu damaq[7]
Qəmər kimi şölə verir o dızaq[8].

Qələm alıb əhvalımız yazarıq,
Qəhbə fələk fitnəsindən yazarıq[9],
Qışın zəhmətindən çıxıb yazarıq[10],
Qoyun-quzu cövlan eylər o dızaq[11].

Qarı düşmən ölsün gedək yasadıq[12],
Qayım-qayım dost dərdini yasadıq[13]
Qadir Allah yaradıbdır yasadıq[14],
Qayıtmanam təriqindən o dızaq[15].

Qoyma rəqib dərgahına yaxalıq[16],
Qəsdi bunu aparmıya yaxalıq[17],
Qismət eylə bu Zakirə yaxalıq[18],
Qızılgülə sarmaşıbdı o dızaq[19]

[1] Biz acıq
[2] Dızaq yer adıdır
[3] Bizə çox
[4] Od uzaq
[5] Bu nəşə, sevinc
[6] Budamaq, öldürmək
[7] Bu dəmac
[8] O üzü ağ//dizi ağ
[9] Ya ağlarıq, zarıq
[10] Yaz arıq
[11] Ot uzaqdır
[12] Yasadək (yasına)
[13] Bağladıq (kəsdirdik)
[14] Ya sadiq, sədaqətli
[15] O duzəx (cəhənnəm)
[16] Ey Allah
[17] Rütbə
[18] Yaxalıq, köynək
[19] Düzağ, iki qarğa

* * *

Dəli könül nə düşübsən çöllərə,
Məgər usanmazsan yar aşiqidi[1],
Dost kuyindən gedən deyil bir yana,
Rəqibi-səgsifət yar aşiqidi.

Adəm gərək həzz eyləyə həvadən[2],
Xatircəm ol gətirmişəm həvadən[3].
Laçın kimi qanad çaldı həvadən.
Sonanın bağrını yar aşiqidi[4]

Haçan ola canan gələ bu saça[5],
Qorxuram ki, qanlı qəmzə bu saça[6].
Qurban olum bu geysuyə, bu saça
Sənubər qəddinin yar aşiqidi[7]

Naşi sərraf fayda bulmaz o laldan[8],
Xəbər alma bilən deyil o laldan.
Yara deyin əl götürsün o laldan[9],
Ağ geysin ki, əcəb yar aşiqidi1[10]

Qaş qaradı, xal həbəşi, gözələ[11],
Yığ dərdini bu canıma gözələ[12],
Zakir meyl eyləməz yetən gözələ,
Bir büllur əndamlı yar aşiqidi.

[1] Yar aşıqi, dc
[2] Məhəbbətdən
[3] Dəyirmana, hava, dən gətirmişəm
[4] Yarmaq üçün şığıdı
[5] Dodaq açа
[6] Bu, qoxu saça
[7] Yaraşığıdır
[8] Ləl-cəvahirdən
[9] O aldan, qırmızı paltardan
[10] Yaraşıq idi
[11] Göz ala
[12] Gözəmək

* * *

Dilbər, həsrətindən xəstə düşmüşəm,
Hicran qoymaz duram ayağa məni.
Çülqala zülfünə, basdır dərində,
Qoyma ki, bükələr ayağa[1] məni.

Gün camalın yüz min eyib tapdaya[2],
Gürüsnəsən al başını tapdaya[3],
Dərdü qəmin həddi nədir tapdaya
Sən salmasan əgər ayağa məni.

Hazır olsa bir məclisə o zalım[4]
Yenə mənim öz yaxamdı o zalım[5]
Piltə kimi dönə-dönə o zalım,
Yandırdı, buladı ayağa[6] məni.

Çünki düşdün eşq oduna yan, yana[7],
İnsaf eylə hər tərəfdə yan yana[8],
Neçə aşiq döşənibdir yan-yana,
Kim çalıb onlara ayağa məni[9]

Qoşulmadı Zakir nocamə[10] səndən,
Bəhs etmək olurmu nə camə səndən.
Nə ücrət istərəm, nə camə səndən,
Tək qovma dərindən ayağa[11] məni.

[1] Qoyma məni ağa bükələr
[2] Tapdı aya
[3] Tap dayə
[4] Yüz alim
[5] Öz yaxamdır, öz əlim
[6] Yağa buladı
[7] Yan, yan, a!
[8] Yanana
[9] Aya qəməni, xəncəri?
[10] Camə, şəraba qurşanmadı, alışmadı
[11] Ay ağa

* * *

Əlləri qurumuş məşşatə sənin,
Salıb gərdəninə o taq nədi?![1]
Məgər ki, dolanır hilal başına
Bəyaz cəbinində o taq nədi?[2].

Dərs alıb oxudum hərayə[3] gəldim,
Müşkülüm bitmədi hərayə[4] gəldim.
Dərd əlindən yara hərayə gəldim,
Artırdı qəmimi o taq nədi?[5]

İş görən hər kəsin öz kamalidi[6],
Ariflər istəsə öz kamalidi[7].
Aqbəti yoxdu öz kəmalidi[8],
Cəhanın zərnişan o taq nədi...[9]

Cəbrail qalanda olar dəmindən[10],
Lütf edib çıxardı olar dəmindən[11]
Dürüst oldu pəri olar dəmindən[12],
Yoxsa yanmış idi, o taq nədi[13].

Xəstə Zakir, cövə dəymə, buqdan üz[14]
Hardan görsən səg rəqibi buqdan üz[15],
Qorxuram ki, zərər çəkə buqdan üz[16]
Bir məkəs pərindən o taq nədi[17].

[1] Tövq, boyunbağı; nədir?
[2] Tağ, əyri (saç)
[3] Hər ayə
[4] Haraya hər yerə
[5] O dəxi nədi? // o da qınadı
[6] Ağlı, kamalıdır
[7] Az kam alardı
[8] Özgə malıdır
[9] Tağı, əyrisi, gümbəzi
[10] O, ordəmindən, koramətindən
[11] Onları lütf edib damudan, cəhənnəmdən çıxarar
[12] Ol ər dəmindən, yəni Məhəmmədin nəfəiylə Cəbrail qanad çaldı
[13] Oda qanadı
[14] Buğdanı üz
[15] Boğ, cananı üz
[16] Bığdan üz
[17] O da qanadı (milçək qanadından qanayan üz bığa neco tab gətirsin?)

* * *

Gün cəmalın göz yaşını qurutdu,
Qoymadı bulut tək ayağam[1] məni.
Əl götürməz, gedər-gedər qayıdı,
Nə taptaq eyləyib ayağam[2] məni.

Qovğa günü Rüstəm ilə əzələm[3],
Gələ bilməz meydanıma əzələm[4],
Mən sərxoşi-peymaneyi-əzələm,
Xəlq məndən öyrənib ayağam məni[5]

Qaşlarındı rüxsarında sərayə[6]
Həsrətindən rəngim dönüb sərayə[7]
Dost qədəmin basdı bizim sərayə,
Demənəm kimsədən ayağam[8] məni.

Yığılıb bir yerə arxayın[9] olmuş,
Deyirlər bizimlə arxayın[10] olmuş.
Oturub evində arxayın olmuş,
İmtahan eyləmiş ayağam[11] məni.

Zakir tək bəzmində oxumar[12] oldum,
Bir kamanəbrudən oxumar[13] oldum,
Ləli-ləbin sordum oxumar[14] oldum,
Yoxsa ki, tutubdur ayağam[15] məni.

[1] A, yağam
[2] Aya, qəm
[3] A Zalım
[4] Zalım
[5] Ayaq əmməni (badə içməyi)
[6] Sərlövhə, ayə başı
[7] Sarı aya
[8] Əskikəm
[9] Arxa, ön
[10] Ər xayin
[11] Ay ağam
[12] Xumar
[13] Ox umar
[14] Ah xumar
[15] Ayağım, piyaləm

* * *

Laçın gözlüm, səndən cüda düşəli,
Abi-rəngim qaçıb ağulanmışam[1].
Dönə-dönə yanıb canım-cigərim,
Eşqin atəşinə ağulanmışam[2]

Dərs alıb oxudum yazığam mana[3],
Qış möhnət çəkdirir, yazığam mana[4],
Ver şəfa ləbindən yazığam mana,
Zəhri-fəraqınla ağulanmışam.

Yaslanıram kəlbin kimi dəryaya[5],
Xəstə cismim şəfa tapa, dəryaya[6],
Tut əlimi qərq olmuşam dəryaya
Zovrəqim sınıbdır ağulanmışam[7].

Hicr əlindən pərişanəm üzüldü[8],
Qara bəxtim zülfün kimi üzüldü[9]
Dərdü qəm çəkməkdən canım üzüldü,
Ömür keçib, indi ağulanmışam[10].

Mən Zakirəm dilim dönməz hər ada,
Göz yaşım tək ola bilməz hər ada,
Bir yol deməz görün qalıb hər ada11
Müddətdi dərində ağulanmışam[12].

[1] Qu kimi ağarmışam,qocalmışam
[2] A qalanmışam
[3] Yazı qanmağa, öyrənməyə
[4] Yazı qəm mənə
[5] Dərgahına
[6] Tər yaya, tərləyə
[7] A qollanmışam, qol açıb üzməyə başlamışam
[8] Yüz ildir
[9] A zildir
[10] Ağıllanmışam
[11] Harada
[12] A, qovulmuşam

* * *

Nazlı dilbər, bu gün gülşən seyrinə,
Getdi, aparmadı üzülən[1] məni,
Möhnət leşkərinin kirəkeşiyəm,
Qoymayın qatardan üzülən[2] məni.

Dönə-dönə dərs almışam alimdən,
Dil mürğünə xallarından alimdən[3],
Sərü-zülfün buraxmazam alimdən[4],
Əgərçi dişləyə üzülən[5] məni.

Qorxuram ki, səg rəqiblər kəmalə[6],
Gecə-gündüz fikrim budur kəmalə[7],
Bəd əsillər çətin yetər kəmalə,
Əgərçi oxuya üzilən məni[8]

Kəs başını harda görsən ərindi[9],
Gələməyibdi Əli kimi ərindi[10],
Yardan ayrı cismim elə ərindi[11],
Görsə də tanımaz üzülən[12] məni.

Hicran atəşinə can bazarıdı[13],
Bağrım şan-şan edən can bazarıdı[14].
Vəsiyyət çağıdı, can bazarıdı[15],
Zakirəm, bilməyin üzülən[16] məni.

[1] Özü ilə
[2] Ayrılan, üzülən
[3] Dən alım
[4] Əlimdən
[5] Yüz ilan
[6] Kam ala
[7] Kəm, az ala
[8] Yüz il "Əmməni"
[9] Əgər indi
[10] Ər indi
[11] Əridi
[12] Yüz ilə, qarşı-qarşıya
[13] Can yenə əridi
[14] Canbaz ər idi
[15] Can bazarıdır, ölüm ayağıdır
[16] Özü ilə

* * *

Ömürlər səf edib, canlar üzməmiş,
Həmdəm olmaz ey dil, oturan[1], sənə.
Mənzili-məqsudə yetmək istəsən,
Həzrəti-Musa tək oturan[2] sənə.

Cigər yandı Hərarətdən yəx arac[3]
Şirin canın qəm oduna yəx arac[4]
Zülfün alır Hindi-Çindən yəx arac[5],
Bəndeyi-fərmandır oturan[6] sənə.

Sən ağasan mən sənin öz gədən,
Dil mürğünə verə bilməz öz gədən[7].
Dəli könül umub-küsmə öz gədən[8]
Aləm bilir odur oturan[9] sənə.

Uca dağlar dərdim ilə yar olmaz[10],
Bir sinəyə ox dəyməsə yar olmaz[11]
Əbəs yerə cəfa çəkmə yar olmaz
Rəqib ilə durub, oturan sənə.

Görməmişəm zülfün kimi tərlanı[12]
Xəstə canım şəfa tapıb tərlanı[13]
Zakir, qəsdin tutma qisə tərlanı
Çəkilib bir küncə oturan[14] sənə.

[1] Sakin olan
[2] O Turi-Sina dağını ansana
[3] Buz axtar
[4] Yaxar ac
[5] Ya xərc alar
[6] O Turan ölkəsi
[7] Özgə dən
[8] Özgədən
[9] Od vuran
[10] Yarı olmaz
[11] Yara olmaz // yarılmaz
[12] Tər ilanı
[13] Tərlənir
[14] Otur an sana (saniyələri sana)

* * *

Ha deyirsən gələcəyəm, gəlməzsən,
Bu qədər insanda ayılan[1] olmaz.
Sənin qəmzən kimi xəncəri-xunriz,
Mənim bağrım kimi ayılan[2] olmaz.

Bir yerdə ki, şərh eyləyə araya[3],
Arif gərək o mənanı araya[4],
Saqi oldun sən ki, düşdün araya[5],
Dəxi bu məclisdən ayılan olmaz.

Dərin dərya kənarında yaqusən[6],
Tök rəqibin gözlərinə yaqusən[7],
İnsafi yox, qəzəği yox yaqusən[8],
Hərgiz sənə mayil ayılan[9] olmaz.

Neçə aşiq can veribdir dərində[10],
Neçəsi də pabəstədi dərdinə[11],
Muradımız hasil xaki-dərdində
Yatarıq illən, ayılan[12] odmaz.

Sonalar gölləri bulanıq olar,
Piltə cismim yanar bulanıq olar[13]
Görəndə Zakiri bulanıq olar[14]
Zülfün kimi bədxu ayılan[15] olmaz.

[1] A, yalan
[2] Ovulan, parçalanan
[3] Ər ayə şərh edə
[4] Araya, axtara; öyrənə
[5] Ortaya, araya
[6] Ya qu quşusan
[7] Ağu sən
[8] Yağısan, düşmənisən
[9] Mail olan, vurulan
[10] Dövrəndə//dövründə
[11] Dərinlikdə
[12] Ay ilə
[13] Qovlar, liflər yağa bulanar
[14] Bulanıb, qovar
[15] Ay ilan.

* * *

Heyf ki, bilmədim çay kənarında
Yetişən guşimə bu səda qıydı[1].
Yoxsa qətl-am edib xublar aşiqin
Səs səsə veribdir bu səda qıydı[2].

Çeşmimin yaşından dirilən[3] olmaz,
Siyəh zülfün kimi dirilən[4] olmaz,
Yar gəlməsə məndən dirilən olmaz,
Məni xəstə salan bu səda qıydı[5].

Müjganları tökər yağı[6] gölərin,
Əritdi cismimdə yağı gözlərin.
Qanlıdır aşikar yağı gözlərin
Bu yayı, bu oxu bu səda qıydı[7].

Gündüz yüzə çıxa bilməz yarasan[8],
Əfv olursan qulluğuna yarasan.
Etibar eyləmə, çarə yarasan[9],
O biri şəfadı, bu səda qıydı[10]

Hahan qəmin yetər oldu üzə[11] yar,
Az qalıbdır Zakir canın üzə, yar.
Səri-zülfün qoma düşə üzə, yar,
Qorxuram üzari bu səda qıydı[12].

[1] Qıy idi, səs idi
[2] Bu tamam ahü nalə, mərsiyyə idi
[3] Durulan, saflaşan
[4] Diri, cəld ilan
[5] Busə dağı idi
[6] Ağu, zəhər
[7] Bu sədəqi, ox qabısı idi
[8] Sənin yarasan, gecə quşun
[9] Ara-axtar sən
[10] Bu səd, tamam ağu idi
[11] Yüzə yetdi
[12] Poza, dağıda.